**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**İQTİSADİYYAT İNSTİTUTU**

***Əlyazması hüququnda***

**ƏLİ ƏKBƏR GELYANİ HÜSEYNƏLİ OĞLU**

# XARİCİ İNVESTİSİYALARIN İRAN İQTİSADİYYATINDA YERİ VƏ ROLU

**İxtisas 5310.01 - Dünya iqtisadiyyatı**
**5308.01- Ümumi iqtisadiyyat**

İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın

## AVTOREFERATI

**Bakı- 2018**

Dissertasiya işi Azərbaycan milli Elmlər Akademiyasının akademik Z.M. Bünyadov adına Şərqşünaslıq İnstitutunda yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**A.A.RÜSTƏMOV**

**Rəsmi opponentlər**: iqtisad üzrə elmlər doktoru
**E.Y. Məmmədov**

iqtisad üzrə fəlsəfə doktoru
**A.A.Eyvazov**

**Aparıcı təşkilat:** **Bakı Dövlət Universiteti**
**”İqtisadiyyat və idarəetmə” kafedrası**

Müdafiə 27 fevral 2018-ci ildə saat $14^{00}$ - da AMEA İqtisadiyyat İnstitutunda fəaliyyət göstərən D.01.181 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir..

Ünvan: AZ.1141,şəhəri, H.Cavid prospekti 115, AMEA İqtisadiyyat İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın İqtisadiyyat İnstitutunda tanış olmaq olar.

Avtoreferat 26 yanvar 2017-ci ildə göndərilmişdir.

D.01.181 Dissertasiya Şurasının
elmi katibi, iqtisad üzrə fəlsəfə doktoru **S.T.Şixəliyeva**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Qloballaşma prosesi gücləndikcə ölkələrin dünya təsərrüfat sisteminə inteqrasiyası da genişlənir. Qloballaşmanın iqtisadi aspekti üç mühüm sahədə ölkələrarası əlaqələrin genişlənməsinə səbəb olur. Birincisi ölkələrarası xarici ticarətin genişlənməsi, ikincisi ölkələrarası maliyyə axınlarının güclənməsi və üçüncüsü ölkələrarsı miqrasiyanın artmasıdır. Hər üç sahədə ölkələrarası əlaqələrin genişlənməsi ölkələrarası rəqabətin də artmasını şərtləndirir.

Qloballaşma genişləndikcə ölkələrarası maliyyə axınlarının əsas forması kimi birbaşa xarici investisiyalar daha mühüm əhəmiyyət kəsb etməyə başlayır. Yerli və xarici real investisiya qoyuluşu olmadan əsas istehsal fondlarının yenilənməsi, geniş təkrar istehsalı, iqtisadi sahələr üzrə innovasiyalı texnologiyalar üzrə yeni məhsul istehsalı, regionlarda mövcud sosial-iqtisadi problemlərin həlli mümkün deyil.

Lakin xarici investorlar tərəfindən hər hansı bir ölkəyə investisiyaların yönəldilməsi, yaxud belə investisiyaların qəbulu heç də həmişə həvəslə qarşılanmır. Çünki xarici investor öz investisiyalarının təhlükəsizliyinə və yüksək gəlirliliyinə əmin olmalıdır. Digər tərəfdən, investisiyaların yönəldiyi ölkələrdə də belə investisiyaların iqtisadi və sosial-iqtisadi inkişafa səbəb olacağı, daxili bazarın qorunmasının təmin ediləcəyi ilə bağlı əminlik olmalıdır.

Xarici investisiyalarla bağlı belə ziddiyyətli məqam İran İslam Respublikasına da aiddir. Son 35 ildə İranla inkişaf etmiş ölkələr arasındakı siyasi və iqtisadi əlaqələr bu ölkəyə xarici investisiyaların yönəldilməsində qarşılıqlı çətinliklər yaradıb. Belə ki, İrana qarşı tətbiq edilən siyasi, iqtisadi və maliyyə sanksiyaları bu ölkəyə xarici investisiyaların yönəldilməsinə ciddi maneələr yaradıb. Xarici investorlar İrana geniş miqyaslı investisiya yatırmağa ehtiyat edirlər. Digər tərəfdən, İran müstəqil dövlət kimi belə investisiyaların onun daxili sabitliyinə və iqtisadi müstəqilliyinə təhdid yaradacağından narahatdır. Hər iki tərəfin narahatçılığı İran iqtisadiyyatına qoyulan xarici investisiyaların həcminin genişlənməsinə mane olur.

Son illərdə İran İslam Respublikasının iqtisadi və siyasi sisteminin sabitləşməsi onun qloballaşma prosesinə daha ciddi qoşulmasına imkan verib. İran getdikcə xarici ticarəti daha çox liberallaşdırmağa, xarici investisiyalar üçün münbit hüquqi sistemin yaradılmasına cəhd edir. Artıq İran vətəndaşlarının xarici ölkələrə, xarici

ölkə vətəndaşlarının İrana səfərlərinə ciddi maneələr yaradılmır. Bu, İran iqtisadiyyatının rəqabətqabiliyyətliliyini getdikcə artırır.

Lakin bütün səylərə baxmayaraq İran iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi hələ də arzu olunan səviyyədə deyil. İran iqtisadiyyatının hazırki inkişaf səviyyəsi, həmçinin İranda formalaşan insan kapitalı büyük həcmdə maliyyə qoyuluşlarını tələb edir. Belə maliyyə qoyuluşlarını isə xarici şirkətlərin və maliyyə institutlarının köməyi olmadan təmin etmək çox çətindir. Odur ki, İran iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsi üçün investisiya mühitinin inkişaf etdirilməsi zəruridir.

Mövcud investisiya mühitinin təkmilləşdirilməsi və inkişaf etdirilməsi xarici investisiyaların İran iqtisadiyyatındakı rolunun qiymətləndirilməsini tələb edir.

Beləliklə, xarici investisiyaların İran iqtisadiyyatında rolunun qiymətləndirilməsi elmi və praktiki əhəmiyyətlidir.

**Problemin öyrənilmə səviyyəsi.** İnvestisiya layihələrinin, mühitinin qiymətləndirilməsi və seçilməsi, eləcə də müvafiq sahə ilə bağlı problemlərin həlli müxtəlif yerli və xarici iqtisadçı alimlər tərəfindən geniş araşdırılmışdır. Müxtəlif dövrlərdə bu problem M.T.Cəlabadi, M.A.Nəzəri, P.K.Zorar, A.T.Kələntəri, A.M.Rəhimi, Ə.F.Təvəkkoli, İ.L.Rəzzaqi, Ə,A.Şəkiba, M.N.Fərhəngi və s. kimi İran iqtisadçılarının, T.H.Hüseynov, D.Ə.Vəliyev, M.Əhmədov, R.M.Əliyev Z.Ə.Səmədzadə, Ə.Q.Əlirzayev, V.M.Şirəliyev, S.İ.Səfərov və s. Azərbaycan iqtisadçı alimlərinin əsərlərində öz əksini tapmışdır.

Lakin, xarici investisiyaların İran islam iqtisadiyyatındakı yeri və rolu, effektivlik amillərinə görə səciyyələndirilməsi probleminə dair müasir şəraitdə elmi-praktik yanaşmaya, investisiya fəaliyyətinin nəticələrinin qiymətləndirilməsinə kifayət qədər hərtərəfli baxışlar müəyyənləşdirilməmişdir. Xarici investisiyaların qiymətləndirilməsi mərhələsində zəruri konsepsiyanın tətbiqi məsələsinə isə kifayət qədər toxunulmamışdır. Məhz bu baxımdan investisiya layihələrinin cəlbediciliyinin, effektivliyinin müəyyənləşdirilməsi, qiymətləndirilməsi problemi bu sahədə tədqiqatları davam etdirməyə aktuallaşdırır.

Qeyd etdiyimiz bu və ya digər müəlliflərin apardıqları tədqiqatların əhəmiyyətini azaltmadan, qeyd etmək lazımdır ki, bu tədqiqatlarda xarici investisiyaların ölkə iqtisadiyyatında yeri və rolu kimi məsələlər kompleks şəkildə kifayət qədər ətraflı tədqiq olunmamışdır.

**Tədqiqatın məqsədi və vəzifələri.** İran İslam Respublikasının iqtisadiyyatına xarici investisiyaların cəlb edilməsinin stimullaşdırılması və istifadəsinin səmərəliliyinin artırılması üçün zəruri təklif və tövsiyələrin hazırlanmasından ibarətdir.

Dissertasiya işində nəzərdə tutulmuş məqsədlərə nail olmaq üçün qarşıya aşağıdakı vəzifələr qoyulmuş və həll edilmişdir:

-investisiya fəaliyyətinin nəzəri-metodoloji əsasları tədqiq olunmuşdur;

-investisiya fəaliyyətinə dair beynəlxalq təcrübə araşdırılmışdır;

-İran İslam Respublikasında mövcud investisiya mühiti və investisiyalardan istifadənin başlıca istiqamətləri müəyyən edilmişdir;

-İran İslam Respublikasında investisiyalardan istifadənin gələcək prioritetləri qiymətləndirilmişdir;

-investisiya qoyuluşu üzrə səmərəliliyin qiymətləndirilməsi və müxtəlif mərhələlərdə ona olan yanaşmalar araşdırılmışıdır.

**Tədqiqatın obyekti** İranda xarici investisiyaların yönəldiyi iqtisadi fəaliyyət sahələridir.

**Tədqiqatın predmeti** İranda xarici investisiyaların iqtisadi və sosial-iqtisadi təsirlərinin qiymətləndirilməsidir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** makroiqtisadi və sosial-iqtisadi inkişafda investisiya qoyuluşlarının roluna həsr edilən nəzəriyyələr, xarici investisiyaların iqtisadi artıma təsirlərinə həsr edilən araşdırmalar, İran İslam Respublikasının və xarici ölkə iqtisadçı alimlərinin(o cümlədən, Azərbaycanın) xarici investisiya qoyuluşlarının qiymətləndirilməsi, xarici investisiya qoyuluşlarının stimullaşdırılmasının artırılması və əsas prioritet istiqamətlərinin müəyyənləşdirilməsinə dair araşdırmalar təşkil edir.

Tədqiqat işi həmçinin sistemli yanaşma, müqayisəli və statistik təhlil, məntiqi araşdırma və s. metodlara əsaslanır.

**Tədqiqatın informasiya bazasını** İran İslam Respublikasının statistika komitəsinin bülletenləri, hesabatları, həmçinin dövrü mətbuat materialları, İran və xarici ölkə alimlərinin sahəvi məsələlərə həsr olunmuş monoqrafiya, məqalə və s. internet resursları təşkil edir.

**Tədqiqat işinin elmi yeniliyi** aşağıdakılardan ibarətdir:

-xarici investisiya qoyuluşu ilə bağlı nəzəri məsələlərə qloballaşma və iqtisadi müstəqillik arasındakı ziddiyyət kimi yanaşaraq onun iqtisadi artıma təsirlərinə nəzri yanaşmalar təhlil edilib;

-xarici investisiyaların iqtisadi artıma təsirləri ilə bağlı beynəlxalq təcrübə tədqiq olunub;

-xarici investisiyalardan istifadənin səmərəlilik prinsipləri müəyyən edilib;

-İran İslam Respublikasında xarici investisiya mühiti qiymətləndirilib;

-İran İslam Respublikasında xarici investisiya qoyuluşlarının səmərəli istifadəsi yolları təhlil edilib;

-İran İslam Respublikasında iqtisadi sahələr üzrə təbii inhisarların dövlət tənzimlənməsi və bu sahələrə xarici investisiya qoyuluşları üzrə hüquqi-metodoloji problemlər müəyyən olunmuşdur;

-İran İslam Respublikasının ÜTT-ə tam hüquqlu üzv olması üçün, eləcə də bu təşkilatın tərkibinə daxil olan Ticarətlə bağlı İnvestisiya Tədbirləri Haqqında sazişin tələb və öhdəliklərinin, müddəalarının ölkədə reallaşdırılması üçün təkliflər və tövsiyələr verilib;

-xarici investisiya qoyuluşlarının cəlbinin stimullaşdırılması üçün dövlət səviyyəsində tətbiqi məqsədəuyğun olan güzəştlərin forma və növləri göstərilib;

-İran İslam Respublikasında xarici investisiya qoyuluşlarının inkişaf strategiyasının əsas istiqamətləri müəyyənləşdirilib və s.

**Tədqiqat işinin praktiki əhəmiyyəti.** Tədqiqat işinin təhlil və qiymətləndirilmələri, həmçinin əldə edilən nəticələr İran İslam Respublikasına xarici investisiya axınlarının təmin olunması, ölkənin Ümumdünya Ticarət Təşkilatına daxil olması istiqamətində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı həyata keçirilən islahatların sürətləndirilməsində, investisiya qoyuluşlarının səmərəliliyinin yüksəldilməsində tədqiqat materialı kimi istifadə edilə bilər. Dissertasiya işi sahəvi ixtisas üzrə təhsil alan və fəaliyyət göstərən ali təhsil müəssisələrinin mütəxəssisləri üçün də faydalı ola bilər..

**Tədqiqat işinin aprobasiyası.** Dissertasiyanın əsas müddəaları, həmçinin tədqiqat işindən irəli gələn nəticə və təkliflər üzrə İran İslam Respublikasında və Azərbaycanda beynəlxalq elmi-praktik konfrans və seminarlarda məruzələr edilmiş və müzakirə olunmuşdur. Dissertasiya işinin əsas mahiyyətini əks etdirən və elmi cəhətdən əsaslandırılmış tövsiyələr dərc olunmuş 6 elmi məqalə və tezisdə öz əksini tapmışdır.

Dissertasiyanın əsas müddəaları, irəli sürülmüş elmi nəticələri İran İslam Respublikasının Eshagh Qeyri Dövlət Ali Təhsil İnstitutuna və İİR-nın Texnologiya, Tədqiqat və Elm(Təhsil) Nazirliyinə təqdim olunmuş və tətbiq üçün arayışlar alınmışdır (arayış verilibdir: №12818, 26.02.2014; №H/92/6473, 27.02.2014).

**Dissertasiya işinin strukturu və həcmi.** Dissertasiya işi girişdən, üç fəsil, 9 paraqrafdan, nəticə və təkliflərdən, istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

Tərtib olunmuş dissertasiya işinin ümumi həcmi 157 səhifədən, o cümlədən 52 cədvəl (əlavə1), eləcə də 104 mənbəni əhatə edən ədəbiyyat siyahısından ibarətdir.

**Tədqiqat işinin strukturu**


**Giriş**

**I Fəsil. İnvestisiya proseslərinin nəzəri-metodoloji əsasları**

1.1. Milli iqtisadiyyata xarici investisiya qoyuluşlarının məzmunu və mahiyyəti

1.2. Xarici investisiyaların cəlb edilməsini müəyyən edən amillər

1.3. Xarici investisiyaların cəlb edilməsinə dair beynəlxalq təcrübənin tədqiqi

**II Fəsil. İranda xarici investisiyalardan istifadənin müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi**

2.1. İranda xarici investisiyalardan və beynəlxalq təşkilatlarla əməkdaşlıq sahəsində mövcud vəziyyətin dəyərləndirilməsi

2.2. Xarici investisiyaların İran iqtisadiyyatının inkişaf dinamikasına təsiri

2.3. İran və Azərbaycan iqtisadiyyatının investisiya cəlbediciliyinin müqayisəli təhlili və qiymətləndirilməsi

**III Fəsil. İranda xarici investisiyalardan istifadənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri**

3.1. İranda xarici investisiyalardan istifadənin gələcək prioritetlərinin müəyyənləşdirilməsi

3.2.İran iqtisadiyyatına xarici investisiya qoyuluşlarının stimullaşdırılması istiqamətləri

3.3. Xarici investisiyalardan istifadənin səmərəliliyinin yüksəldilməsi

**Nəticə və təkliflər**

**İstifadə edilmiş ədəbiyyat**


## MÜDAFİƏ EDİLƏN ƏSAS MÜDDƏALAR

**1.Xarici investisiyalar müasir dövrdə iqtisadi artımı stimullaşdıran əsas amillərdəndir. Xarici investisiyalar milli iqtisadi müstəqilliyə zidd deyil, əksinə hər bir ölkənin dünya təsərrüfat sisteminə inteqrasiyasını təmin etməklə yanaşı, həm də iqtisadi müstəqilliyini möhkəmləndirir.**

Qloballaşma şəraitində birbaşa xarici investisiyalar iqtisadi inkişafın əsas amillərindən hesab olunur. Buna görə də hər bir ölkə birbaşa xarici investisiyaların ölkəyə cəlb edilməsinə cəhd edirlər. Lakin birbaşa xarici investisiyaların ölkə iqtisadiyyatına daxil olması və investorların əldə etdikləri gəlirlərin ölkədən asanlıqla çıxarılması ölkə iqtisadiyyatının liberallığını tələb edir. Ölkə iqtisadiyyatına birbaşa xarici investisiyalar həm maliyyə sektoruna, həm də qeyr-maliyyə sektoruna yönələ bilər. Maliyyə sistemində xarici investisiya qoyuluşu əsasən maliyyə sistemində qiymətli kağızların alışı formasında olur.

Xarici investisiyaların əsas növü birbaşa xarici investisiyalardır (BXİ). BXİ iqtisadi cəhətdən səmərəsi əlverişliliyi bir neçə amillə şərtlənir. 1) BXİ əlavə valyuta ehtiyatlarının ölkə iqtisadiyyatında daxil olmasına şərait yaradır. 2) Əlavə valyuta ehtiyatı yeni iş yerlərinin yaradılmasına və beləliklə, iqtisadi artım tempinin yüksəlməsinə təkan verir; 3) xarici investisiyaların cəlbi həm də yeni texnikanın və texnologiyanın ölkə iqtisadiyyatına cəlb edilməsinə şərait yaradır; 4) BXİ-ı təmin edən transmilli şirkətlər dünya bazarında tələbi nəzərə alaraq daha yüksək tələbə malik olan malların istehsalını nəzərdə tuturlar. İstehsalın strateji məqsədlərə uyğunlaşdırılaraq qurulması ölkənin iqtisadiyyatının dünya bazarının tələblərinə uyğun yenidən qurulmasına və modernləşdirilməsinə kömək edir; 5) müasir tələblərə, elmi-texniki inkişafın nailiyyətlərinə, həmçinin bilik iqtisadiyyatına əsaslanan yeni iqtisadi vəziyyət insan kapitalının da inkişafını tələb edir. BXİ yerli ölkələrdə insan kapitalının inkişafına dəstək verirlər. Yeni və zəruri bilik və bacarığa malik olan ixtisaslı kadrlar transmilli şirkətlərin investisiyaların yönəldiyi ölkələrdə fəaliyyəti başa çatdıqdan da sonra ölkə iqtisadiyyatının genişlənməsində mühüm töhvə verirlər; 6) BXİ adətən öz arxasında köməkçi və ya xidmət xarakterli yeni investisiyaların cəlbini stimullaşdırırlar. Bu, daha çox yerli investisiyaların artmasına səbəb olur; 7) BXİ ölkə iqtisadiyyatının dünya iqtisadiyyatına inteqrasiyasına kömək edir. Belə investisiyaların artması ölkənin maliyyə sektorunun dünya maliyyə sektoruna daha sıx birləşdirir. Xarici iqtisadi fəaliyyət genişlənir; 8) BXİ-ın ölkəyə daxil olması xarici valyutaya olan ehtiyacın müəyyən hissəsini ödədiyindən milli valyutanın devalvasiya dərəcəsini müəyyən qədər azaldır; 9) BXİ yeni iş yerləri və əlavə dəyər yaratdığından büdcə gəlirlərini də artırır.

Lakin BXİ-ın genişlənməsinin iqtisadi müstəqilliyə təhdid olması ilə bağlı bəzi inkişaf etməkdə olan ölkələrin ciddi narahatçılığı var. Belə ölkələrdən biri də İran İslam Respublikasıdır. Narahatçılıqlara

əsas verən faktlar ondan ibarətdir ki, 1) BXİ əksər hallarda təbii sərvətlərin hasilatı sənayesinə yönəldilir; 2) BXİ-ın yönəldiyi müqavilələrdə yerli ölkələrin iqtisadi maraqları daha az nəzərdə tutulur. 3) BXİ-ın əsas daşıyıcıları olan transmilli şirkətlər əksər hallarda ölkənin ictimai-siyasi həyatına müdaxilə etməyə cəhd edirlər. Lakin belə təhlükələrin olmasına baxmayaraq, BXİ müasir dövrdə ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Belə bir zərurəti İran İslam Respublikası da qəbul edir və birbaşa xarici investisiyaların cəlbi üçün vacib olan biznes mühitini formalaşdırmağa cəhd edir.

**2. İranda birbaşa xarici investisiyaların cəlb edilməsini şərtləndirən bəzi amillər yetərincə inkişaf etməmişdir.**

Ölkənin daxili maliyyə resurslarının azlığı səbəbindən iqtisadi inkişaf üçün vacib olan investisiyanın təmin edilməsi ya xarici investisiyaların cəlb edilməsi, ya da xarici ölkələrdən, həmçinin Beynəlxalq Maliyyə İnstitutlarından borc alınması ilə reallaşır. Əlbəttə, ikinici variant zəruri investisiyanın təmin edilməsi üçün uğurlu yol hesab edilə bilməz. Çünki 1) hər hansı xarici ölkədən borcun alınması ölkələrarası siyasi mətlərə müəyyən təsir göstərərək asılılıq hissi yaradır; 2) adətən, belə borcların verilməsi zamanı faiz dərəcələri xeyli yüksək olur. Əgər belə borclardan səmərəli istifadə edilməzsə və ya ölkədə iqtisadi tənəzzül davam edərsə, borcun həcminin artması qaçılmaz olar; 3) maliyyə borclarının əsas hissəsi ölkə iqtisadiyyatında səmərəli investisiyaya çevrilmədiyindən ölkədə iqtisadi artıma təkan vermir; 4) dövlətin xaricdən aldığı borc vəsaitlərinin əsas hissəsi hökumət xərclərinin ödənilməsinə yönəldiyindən makroiqtisadi təsirləri zəif olur və sair.

Hər bir ölkədə xarici investisiyaları şərtləndirən əsas amillər sırasına 1) iqtisadi amilləri, 2)institusional amilləri; 3)ölkədə infrastrukturun inkişaf səviyyəsini; 4) iqtisadi siyasəti; 5)coğrafi şəraiti; 6)ölkənin qloballaşma səviyyəsini və sair aid etmək olar. İqtisadi amillər sırasına isə əsasən üç amili-1) ölkədə bazarın ölçüsünü; 2) istehsal amillərinin qiymətini; 3) istehsal amillərinin keyfiyyətini aid etmək olar.

İran İslam Respublikasında yuxarıda qeyd edilən bəzi amillər birbaşa xarici investisiyaların cəlbinini stimullaşdırır. Lakin bəzi amillər ölkəni hələ BXİ üçün cəlbedici etmir. Məsələn, ölkədə nəqliyat, rabitə, bank xidmətləri infrastrukturu yüksək səviyyədə inkişaf etdiyi halda bankların beynəlxalq maliyyə sisteminə zəif qoşulması ölkəni BXİ üçün cəlbedici etmir. Ölkənin coğrafi şəraiti, xüsusilə okeana çıxışı, təbii

zənginliyi və təbii iqlim şəraiti, həmçinin bazarın həcmi BXİ üçün çox cəlbedicidir. Lakin xarici ticarətə qoyulan məhdudiyyətlər xarici investorları bu üstünlüklərdən istifadə etmək imkanından məhrum edir. İran İslam Respublikasının iqtisadi siyasəti daha çox daxili bazarın qorunmasına yönəldiyindən xarici ticarətin liberallaşması strateji prioritet deyil.

Yollar, limanlar, əlaqə sistemləri, ümumi xidmət sahələri və s. kimi geniş iqtisadi bazanın olması ölkəyə birbaşa investisiya qoyuluşunun cəlbində təsirli rol oynayır. İranın azad sular, şimal-cənub magistralına çıxış imkanı, infrasturktur və ümumi xidmətlər xərclərinin münasibliyi xarici sərmayə qoyuluşunun cəlbində təsirli amillərdəndir.

İran ali təhsil müəssisələrinə illik bir milyon tələbə qəbulu, İslam ölkələrinin 50 ən yüksək universiteti arasında 9 universitetə malik olması, ümumi daxili məhsulun 9 %-nin tədqiqat və inkişaf xərclərinin təşkil etməsi ilə bölgədə insan kapitalı üzrə birinci yeri tutur, istedadların inkişafı, savadlı işçi qüvvəsinin elm və texnologiyalardan daha çox faydalanma zəminlərini yaratmışdır.

İran iqtisadiyyatının strukturu son 40 ildə ciddi şəkildə dəyişməyib. İqtisadi fəaliyyət sahələri arasındakı nisbətdə ciddi fərqlər yoxdur. Lakin bu illər ərzində ÜDM-un həm nominal, həm də real həcminin artması İran iqtisadiyyatının sürətlə inkişafından xəbər verir. Bu illər ərzində nominal ÜDM 50 dəfə, real ÜDM isə 5 dəfə artıb. Əhalinin savadlılıq dərəcəsi 30%-dən 90% qədər yüksəlib. Bütün iqtisadi fəaliyyət sahələrində artım İran iqtisadiyyatını BXİ üçün cəlbedici edir.

Maliyyə-kredit siyasəti ölkədə inflyasiya amillərinin əsas təyinedicisidir. Ölkədə inflyasiyanın səviyyəsi nə qədər aşağı olsa, əmlakın dəyərinin azalma miqdarı və xalis sərmayə qoyuluşunun gəliri az olacaq və nəticədə sərmayə qoyuluşu riski azalıb onun ardınca birbaşa xarici sərmayə qoyuluşu prosesi artacaqdır.

İran statistika mərkəzi tərəfindən elan olunmuş statistikaya əsasən enerji daşıyıcılarının bir hissəsinin qiymətinin azalmasına baxmayaraq inflyasiya prosesi hələ də qalmaqdadır. Vergi siyasəti dövlət büdcəsi və vergi gəlirlərinin stimullaşdırılmasında əsas göstəricidir. Büdcə kəsrinin olması ölkədə inflyasiyanın yaranmasına səbəb olur. Qeyd olunduğu kimi bu hal birbaşa xarici sərmayə qoyuluşu prosesinə mənfi təsir göstərir.

**3. İranda birbaşa xarici investisiyaların cəlb edilməsi üçün zəruri olan biznes mühitinin əlverişliliyi getdikcə artır.**

Ölkə iqtisadiyyatının xarici investisiyalar üçün cəlbediciliyinin mühüm amili investisiya mühitinin əlverişliliyi ilə bağlıdır. Biznes mühitinin əlverişliliyi ölkənin qloballaşma səviyyəsi ilə, həmçinin ölkədə kiçik və orta sahibkarlığın fəaliyyətinə və inkişafına yaradılan şəraitlə bağlıdır.

İranda investisiyaların təşviqi agentlikləri investisiya qoyuluşunun səmərəliliyini artırmaq və ixracat yönümlü xarici investisiya qoyuluşunun (BXİ) cəlbi imkanını yaxşılaşdırmaq üçün ciddi tədbirlər görürlər. Biznes mühitinin yaxşılaşdırılması istiqamətində atılan mühüm adımlardan biri İranda şirkətlərin gəlirlər üzrə vergilərinin miqdarının mütəmadi olaraq azaldılmasıdır. Qeyd edək ki, 2012-ci ildə büdcə daxil olmaları üzrə vergilər 65 %-dən indiki 18 % sabit qiymətə qədər azalmışdır. Vergilərdən azad edilən sahələrin sayı da ilbəil genişlənir.

**Cədvəl 1**

**Vergidən azad olan iqtisadi sahələr**

| Sıra | Azad edilmə | Azad edilmənin miqdarı | Fəaliyyət müddəti |
|---|---|---|---|
| 1 | Kənd təsərrüfatı | 100% | məhdudiyyətsiz |
| 2 | Sənaye və mədən-çilik | 70% | 3 il |
| 3 | Regional bölgələrdə sənaye | 100% | 8 il |
| 4 | Turizm | 60% | məhdudiyyətsiz |
| 5 | İxracat firmaları | 100% | məhdudiyyətsiz |

Mənbə : www.investiniran.ir

Çox da uzaq olmayan keçmişdə İranın üzləşdiyi problemlərdən biri İranda iqtisadi informasiya çatışmazlığı idi. Belə ki, dünya iqtisadiyyatının fəalları İranın indiki vəziyyəti, xüsusilə özəlləşdirmə, xarici sərmayə qoyuluşu, insanların həyat səviyyəsinin yaxşılaşdırılması kimi çoxsaylı dəyişikliklər haqqında heç bir məlumata malik deyildilər. İran iqtisadiyyatı haqqında əsas informasiya onun neft-qaz sənayesi ilə bağlı idi. Dünya mətbuatında İranda insan kapitalının, turizmin və ya kənd təsərrüfatının inkişafı perspektivləri ilə bağlı informasiyaların az olması xarici investorlar üçün İran iqtisadiyyatını o qədər də cəlbedici etmirdi. Əlbəttə, bu, daha çox iqtisadi sanksiyalar nəticəsində İranın

dünya təsərrüfat sistemindən kənarda qalmasının əsas nəticələrindən idi. Amma xarici sərmayə qoyuluşunun həvəsləndirilməsi və dəstəklənməsi haqqında qanun qəbul olunduqdan sonra və onun icra nizamnaməsinin təsdiqi ilə (2002-ci il) İran bazarının potensialı ilə tanış olmaq imkanı yarandı.

BXİ-ın İran İslam Respublikasında qoyuluşu müəyyən prosedurların həyata keçirilməsini tələb edir. Bəzi hallarda bu prosedurlar müəyyən çətinliklər yaratdığından BXİ-ın ölkəyə daxil olması məhdudlaşır.

**4. İranda birbaşa xaric investisiyaların ÜDM-a nisbəti, həmçinin adambaşına BXİ-ın həcmi həm orta dünya, həm də Azərbaycana aid göstəricilərdən xeyli geridə qalır.**

İran iqtisadiyyatına İslam inqilabına qədər müəyyən həcmdə xarici investisiyalar yönəldilirdi. Sonrakı illərdə isə, hətta 2000-ci ilə qədər İrana tətbiq edilən iqtisadi sanksiyalar bu ölkəyə xarici investisiyaların qarşısını aldı. 2000-ci ildən sonra İran iqtisadiyyatına yönəldilən investisiyaların həcmi kəskin artaraq 2012-ci ildə 5 milyard dollara yaxınlaşdı. Əlbəttə, İran kimi böyük iqtisadi imkanlara malik olan ölkə üçün bu həcm o qədər də böyük deyil, amma əvvəlki illərlə müqayisədə bu böyük həcm idi. Lakin sonrakı illərdə yenidən azalma müşahidə olundu.

**Qrafik 1**

**İrana cəlb edilən xarici investisiyaların dinamikası**



BXİ-ın həcminin ÜDM həcminə olan nisbətinin, həmçinin adambaşına BXİ həcminin müqayisəli analizi bunu deməyə əsas verir ki, İran üçün bu göstəricilər həm orta dünya, həm də Azərbaycana aid olan göstəricilərdən xeyli aşağıdır. İnqilaba qədərki dövrdə bu göstərici üzrə İranın göstəriciləri orta dünya göstəricilərindən yüksək idi. Sonrakı dövrlərdə isə İranın göstəriciləri orta dünya göstəricilərindən xeyli geri qalır.

**Qrafik 2**

**İran və dünyada BXİ həcminin ÜDM həcminə nisbətinin müqayisəli dinamikası**




Təqribən eyni mənzərəni adambaşına BXİ həcminin müqayisəli analizində də müşahidə etmək olar. Bu göstərici üzrə Azərbaycan həm orta dünya, həm də İranı üstələyir. Xüsusilə 2002-ci ildən sonra Azərbaycan iqtisadiyyatına yönələn xarici investisiyaların həcmi kəskin artıb. Bəzi illərdə bu həcm adambaşına 550 dollara yaxınlaşır. İranda isə BXİ həcminin ən yüksək olduğu illərdə adambaşına məbləğ 60 dolları ötmür. Qeyd edək ki, son 40 ildə dünya üzrə adambaşına BXİ-ın maksimum məbləği 450 dolları aşmayıb. Bütün hallrda İranda BXİ-ın adambaşına məbləğinin belə az olması ölkə iqtisadiyyatında BXİ rolunun nə dərəcədə olması haqqında müəyyən təsəvvür yaradır.

**Qrafik 3**

**Dünyada, İranda və Azərbaycnada adambaşına BXİ-ın həcminin dinamikası**




**5. Xarici investisiyaların cəlbi İran iqtisadiyyatının inkişafına ciddi təsir göstərməmişdir.**

İranda xarici investisiya qoyuluşu qanununun qəbulundan sonra 2005-ci ildə investisiya prosesinin qəfıl sıçrayışı ölkənin əlverişli məqam əldə etməsini göstərir. Ölkənin mövcud potensialına nisbətdə bu miqdar xarici investisiya qoyuluşunun cəlbi üçün İranın bütün imkanlarmı göstərməsə də, bu addım ölkənin dördüncü inkişaf proqramında nəzərdə tutduğu məqsədlərə çatmasının əsası ola bilər. İnvestisiyanın digər cəlbi üsulları arasında birbaşa xarici investisiya qoyuluşu üçün əlverişli məqamın əldə edilməsi dördüncü inkişaf proqramının xüsusiyyətlərindən biridir.

Maraqlı məsələ budur ki, son bir neçə il ərzində İran həmişə inkişaf etməkdə olan ölkələr arasında birbaşa xarici investisiya qoyuluşunun cəlbi üçün yüksək potensiallı ölkə kimi təqdim olunmuşdur. Lakin regionun digər ölkələri ilə, məsələn, Türkiyə, Pakistan, Hidistan, Çin ilə müqayisədə İrana yönəldilən BXİ həcmi çox kiçikdir. İrana yönəldilən investisiyaların həcmi bəzi illərdə Türkiyədən hətta 6 dəfə az olub.

İran iqtisadiyyatına yönəldilən BXİ-ın həcminin onun ÜDM həcmi ilə müqayisədə çox az olması onun iqtisadi artıma təsirlərini azaldır. Hətta

BXİ həcminin yüksək olduğu 2002-20015-ci illər üzrə ÜDM həcminin BXİ-dan asılılığının analizi bunu deməyə əsas verir ki, laqın 3 olduğu reqresiya modelində

$$y_t = a_0 + a_1 * X_t + a_2 * X_{t-1} + a_3 * X_{t-2} + a_4 * X_{t-3} + \varepsilon_t$$

ÜDM ilə BXİ arasında ciddi korrelyasiya əlaqəsini müşahidə etmək mümkün olmayıb.

**6. İranda qəbul edilən dövlət proqramları ölkədə xarici investisiya üçün əlverişli şəraitin yaradılmasına və səmərəliliyin artmasına müsbət təsir göstərir.**

İslam inqilabının qələbəsi və ilk onillikdə dövlətin böhran yaradan hadisələrlə o cümlədən beynəlxalq embarqo, xarici sərmayəçilərin blokadaya salınması, ölkədən sərmayənin çıxarılması, vadar olunmuş müharibə, dövlət xərclərinin artması, siyasi qeyri-sabitlik və valyuta resurslarının məhdudlaşması, riyalın dəyərinin azalması, inflyasiyanın artması, böyük sənayenin milliləşməsi və s. ilə üzləşməsi yeni iqtisadi sistemin yaradılmasına ciddi çətinliklər yaradır.

İslam inqilabından sonra ilk iqtisadi proqramın hazırlanmasında milli sərvət və sərmayədən maksimum istifadə vurğulanmışdır və xarici sərmayə qoyuluşu nəzərdə tutulmamışdır. Dövlət iqtisadi bərabərlik siyasətinin icrası ilə yanaşı ticarətin azad edilməsi istiqamətində də müəyyən addımlar atdı. Dövlətin zəmanəti ilə cüzi maliyyə payından istifadənin qəbulu, məhsulun idxal-ixrac qaydalarının yüngülləşdirilməsi idxal məhdudiyyətlərini azaltdı.

İkinci iqtisadi, ictimai, mədəni inkişaf proqramı (1994-1999) İslam inqilabının qələbəsindən 15 illik dövrdən sonra xarici sərmayə qoyuluşunun yenidən qəbulunu nəzərdə tuturdu.

Üçüncü iqtisadi inkişaf proqramında daxili sərmayə qoyuluşunu artırmaqdan əlavə xarici sərmayə qoyuluşu mövzusu və onun həyata keçirilməsi şərtlərinin yüngülləşdirilməsi nəzərdə tutulurdu. Bu, illik 14,5 milyard dollar sərmayə qoyuluşuna ehtiyacı olan 765000 iş yerlərinin yaranması üçün xarici sərmayə qoyuluşu vasitəsilə təmin olunmalı idi. Siyasi, iqtisadi və hüquqi sahələr xarici sərmayə qoyuluşunun cəlbi üçün hazırlanmalı idi. Xarici investorların məclis tərəfindən himayəsi ilə İranda sərmayə qoyuluşu şəraiti və iqtisadi fəaliyyətlər haqqında məlumatların təqdimi üçün, həmçinin İranda xarici

sərmayə qoyuluşu prosesini sürətləndirmək üçün xüsusi təşkilat təsis olundu.

2005-ci ildə İranda xarici investisiya qanunun təsdiqi və investisiya cərəyanının sıçrayışı onu göstərir ki, ölkə həmin vaxt məntəqədə əlverişli məqam qazanmışdır. V İnkişaf Proqramı və ölkənin mövcud potensiallarının müqayisəsində investisiya miqdarı lazımi səviyyədə sayılmasa da, proqramın məqsədlərinə çatmaq üçün təsirli addım ola bilər.

Aparılmış araşdırmalar onu göstərir ki, VI Beşillik İnkişaf Proqramında nəzərdə tutulan məqsədlərin həyata keçirilməsi üçün milli iqtisadiyyatın müxtəlif sahələri üzrə 58 milyard ABŞ dolları investisiya qoyuluşu həyata keçirilməlidir. Nəzərdə tutulmuş bu həcmdə investisiya qoyuluşundan 25 milyard ABŞ dolları iqtisadi layihələr üzrə maliyyələşdirmə, 18 milyard ABŞ dolları iqtisadi əməkdaşlığın genişləndirilməsi və 15 milyard ABŞ dolları iqtisadi sahələr üzrə birbaşa investisiya qoyuluşları üçün nəzərdə tutulmuşdur.

**Cədvəl 2**

**VI İnkişaf Proqramında nəzərdə tutulan illik investisiya qoyuluşunun strukturu (milyon ABŞ dollarla)**

| İllər | 2016 | 2017 | 2021 proqnoz | Səhmin faizi |
|---|---|---|---|---|
| Ümumi investisiya qoyuluşlarının həcmi | 17164 | 18716 | 43880 | 1-9 |
| İnvestisiya qoyuluşu üçün bank güzəştlərinin həcmi | 35880 | 42686 | 76865 | 4-7 |
| Milli İnkişaf Fondu | 10805 | 16900 | 270701 | 3-9 |
| İnvestisiya bankı | 11940 | 14567 | 44208 | 4-8 |
| Dövlət şirkət və müəssisələri, ümumi və qeyri-dövlət orqanları | 18000 | 21253 | 36746 | 4-12 |
| Şəxslərin vəsaiti | 4298 | 5104 | 9223 | 0-3 |
| Xarici investisiya qoyuluşunun maliyyə təminatının həcmi | 1865 | 8925 | 47014 | 3-25 |

***Mənbə :*** *İran İslan Respublikasının statistika təşkilatının saytı www.cbi.ir-2016*

2016-cı ildə 62/5 milyon dollar ümumdaxili məhsulun həcmi ilə müqayisədə İran iqtisadiyyatında xarici investisiya qoyuluşunun miqdarı çox az olmuşdur və ÜDM-in birbaşa xarici investisiyanın miqdarından asılılığı göstərir ki, Reqres Laq 3 modelində ÜDM-lə birbaşa xarici investisiya arasında ciddi əlaqə müşahidə olunmamışdır.

**7. İran birbaşa xarici investisiya qoyuluşlarına ehtiyatla yanaşaraq ölkənin əksər iqtisadi fəaliyyət sahələrində, xüsusilə maşınqayırma sənayesində proteksionist iqtisadi siyasət yürütməkdə davam edir.**

2012-ci ildə İran sənayesini genişləndirmək və dünya bazarlarında rəqabət imkanını artırmaq üçün kiçik maşınqayırma şirkətlərinin səhmləri İranın iki şirkəti- Xodro və Saypanın ixtiyarına verildi. Sənaye Nazirliyinin verdiyi məlumatlar onu göstərir ki, 2012-ci ildə minik avtomobillərinə tələb iki milyondan çox olmuşdur. Əlbəttə, bu statistika işlənmiş maşınların əvəzlənməsi ilə bağlı tələbə şamil olunmur.

Digər tərəfdən, İran maşınqayırma şirkətlərinin proqramları və Reno, Nisan, Fiat, Hyunday, Kiya, Folsvagen kimi böyük xarici maşınqayırma şirkətləri ilə imzalanmış müqavilələrə əsasən PWC müəssisəsi 2013-cü ildə İranın istehsalını 2,2 milyon maşına çatdırdı.

İranda xarici ticarətdə proteksionist siyasət davam etməkdədir. Bunun təticəsidir ki, İranda dünyanın böyük avtomobil istehsalçıları ilə yerli şirkətlərin strateji əməkdaşlığı azalmışdır. Odur ki, İranda bu şirkətlərin investisya qoyma cəhdləri də məhsulların montajı səviyyəsində əməkdaşlığına qədər azalmış, həmçinin texnologiyanın göndərilməsi məsələsinə az diqqət ayrılmışdır. İran avtomobil sənayesində montajdan üstün fərqli müqavilə İranda Luqan istehsalı müqaviləsidir ki, ona əsasən Reno-Pars şirkətinin təşkili, Reno-Nissan şirkətinin əməkdaşlığı ilə Luqan maşını üç İran şirkəti – Xodro, Pars Xodro və Reno-Pars şirkətləri tərəfindən istehsal olunacaq. Bu əməkdaşlıqda qərara alınmışdır ki, İrana yeni texnologiyalar göndəriləcək.

Dünyada gəlirli və rəqabətli sənaye sayılan maşınqayırma sənayesi neftdən sonra ikinci yeri tutur və dünya maşın istehsalının 88%-dən çoxu 15 böyük maşınqayırma şirkətinin əlindədir.

İran maşınqayırma sahəsində dünya bazarlarında rəqabət gücünü artırmaq üçün uzun müddətdir ki, İran Xodro və Saypa şirkətlərinin birləşməsinə çalışır. Digər tərəfdən, maşınqayırma sənayesinin polad, aliminium, şüşə, ehtiyat hissələri, polimer, plastik, alət düzəltmək kimi digər sənayelərlə əlaqədə olması səbəbindən bu sahələr də inkişaf edəcək və məşğulluq səviyyəsi artacaq.

İranda daxili bazarın qorunması üçün həyata keçirilən proteksionist siyasət məşğulluğun artmasına və yerli məhsulların istehsalının genişlənməsinə təkan versə də digər bir problemin yaranmasına səbəb olur. Bu da ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyi ilə bağlıdır. Ölkə iqtisadiyyatı dünya təsərrüfat sisteminə az inteqrasiya etdiyindən yerli malların rəqabətqabiliyyətliliyinin artırılması üçün motivasiya azdır. İran iqtisadiyyatı dövlət iqtisadiyyatıdır və dövlətin iqtisadiyyata baxışı siyasi və ideoloji mülahizələrə əsaslanan bir baxışdır. Buna baxmayaraq, İran biznes mühitinin inkişafına xüsusi diqqət yetirir.

İqtisadiyyatı özəlləşdirmək və azad etmək daxili bazar qüvvələrinin inkişafına səbəb olan və daxili iqtisadiyyatda beynəlxalq iqtisadi qüvvələrin iştirakını yaradan mühüm siyasətlərdir. İranda bir neçə il müddətində özəlləşdirmə aparılsa da, ağır sənaye və dövlət resurslarının mühüm hissəsi dövlətin ixtiyarındadır. Lakin son illərdə dövlət mülkiyyətində olan zavod və şirkətlərin bir hissəsi özəl sektorun ixtiyarına verilib.

Lakin bütünlükdə İranın həyata keçirdiyi proteksionist siyasət biznes mühitinin inkişafına mənfi təsir göstərir və xarici investisiyaların ölkəyə cəlbinə mane olur.

İranda özəlləşdirmə prosesi iqtisadiyyatın digər sahələrində geniş miqyaslı liberallaşma prosesi ilə müşaiyyət olunmadığından ciddi nəticələr vermir. Liberallaşma prosesi o zaman səmərəli olur ki, ölkə iqtisadiyyatı, o cümlədən maliyyə sistemi dünya təsərrüfat sisteminə və maliyyə sisteminə qoşulmuş olsun. Belə qoşulma ölkə iqtisadiyyatını BXİ üçün açıq edir, ölkədə biznes mühiti inkişaf edir.

**Disssertasiyada aşağıdakı təkliflər irəli sürülmüşdür:**

-xarici investisiyaların ölkənin qeyri-neft sektorunun inkişafını sürətləndirmək məqsədilə stimullaşdırılmış vasitəsitələrlə cəlbi məqsədəuyğundur;

-İran İslam Respublikasının qeyri-neft sektorunun iqtisadiyatdakı xüsusi çəkisinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinin artırılması və qeyd olunmuş

sahələrin inkişafı məqsədilə sahəvi inkişaf proqramlarının tərtib edilməsi zəruridir;

-İran İslam Respublikasında müxtəlif layihələr çərçivəsində özəl sektorun kreditləşməsi ilə məşğul olan maliyyə-kredit təşkilatların fəaliyyətinin effektivliyinin artırılması, bu sahədə idarəetmənin asanlaşdırılması üçün koordinasiya şurasının formalaşdırılması ən vacib şərtlərdən biridir;

-İranda iqtisadi sahələrin rəqabət qabiliyyətinin yüksəldilməsi baxımından səmərəliliyinin daha da artırılması məqsədilə xarici investisiyaların innovasiyaların tətbiqinə yönəldilməsi əsas prioritetlərdən hesab olunmalıdır. Bu məqsədilə müvafiq stimullaşdırıcı addımların atılması zəruridir. Bundan başqa xarici ölkələrdən yeni texnika və texnologiya idxalında gömrük rüsumlarının azaldılması, müəyyən vergi güzəştlərinin reallaşdırılmasına nail olmaq lazımdır;

-İran İslam Respublikasında xarici investisiyaların qeyri-neft sektorunun inkişafına yönəldilməsi üçün zəngin təbii-iqtisadi resurs ehtiyyatlarına malik olması mühüm üstünlükdür. Bununla yanaşı, İranın müqayisəli üstünlüyə malik olduğu sahələrin daha da konkretləşdirilməsi və xarici investisiya qoyuluşlarında bu sahələrə üstünlük verilməsi daha düzgündür. Yalnız bu halda qeyri-neft sektorunun inkişafını təmin etməklə yanaşı, müəyyən sahələrdə yüksək beynəlxalq rəqabət qabiliyyətinə çatmaq olar;

-İran İslam Respublikasının iqtisadi sahələri üzrə xarici investisiyaların cəlbinin yüksəldilməsi ilə yanaşı, milli iqtisadiyyatda gəlirlətin və real yığım hesabına daxili maliyyə mənbələrinin genişləndirilməsi, daxili investisiya qoyuluşlarının ilbəil artımını təmin etmək lazımdır;

- hal-hazırda dünya ölkələri ilə iqtisadi əməkdaşlıq əsas prioritet məsələlərdən olduğuna görə İran İslam Respublikasının da Dünya Ticarət Təşkilatına üzv olması məsələsinin ən qısa müddətdə həlli zəruridir;

-qanunvericiliyin sabitləşdirilməsi, investorlar üçün maliyyə, valyuta, vergi, tarif tənzimlənməsində beynəlxalq təcrübəyə əsaslanaraq təkmilləşdirilmiş hüquqi bazanın yaradılması əsas məsələlərdəndir. Nəzərə almaq lazımdır ki, xarici investorların İran İslam Respublikasına axınının mühüm şərti qanunverici bazanın möhkəmlənməsi, hüquqi normalara riayət edilməsi, onların məcburi icrasını təmin edilməsi ilə bağlıdır;

-İran İslam Respublikasında təbii ehtiyyatların xarici investorların iştirakı ilə istismarını tənzimləyən vahid hüquqi-normativ baza və mükəmməl təşkilati-idarəetmə mexanizminin yaradılması və bu sahədə xarici investisiyalar üzrə dövlət nəzarətinin təşkili lazımdır;

-İran islam Respublikası üzrə səmərəliliyinin ciddi meyarlarına cavab verən layihələrdə mərkəzləşmiş investisiyaların müsabiqə ilə yerləşdirilməsi yolu ilə investisiya siyasəti reallaşdırılmalıdır;

-xarici investisiyalar ixrac yönümlü emal-sənaye, infrastruktura və aqrar sektor üzrə istehsal sahələrinə yönəldilməlidir;

-neft ve neft məhsullarının ixracından əldə olunan valyutanı milli iqtisadiyyatın digər sahələrinə yönəldilməsi təmin edilməlidir;

-müştərək müəssisələr, maliyyə sənaye qrupları və Transmilli Korporasiyaların yaradılması yolu ilə strateji əhəmiyyətli ölkələrlə sıx investisiya əməkdaşlığı yaradılmalıdır;

-daimi fəaliyyət göstərən vergi güzəştləri ilə yanaşı ayrı-ayrl ödəyicilərə fərdi vergi güzəştlərinin verilməsi mexanizminin tətbiqi zəruridir. Nəzərdə tutulan güzəştlər məqsədli xarakter daşımalı, daha çox üstünlük konkret xarici investisiya proqramı və ya layihələrinə verilməlidir;

-beynəlxalq təcrübə nəzərə alınmaqla xarici investisiyalardan yüksək səmərə əldə etmək məqsədilə onların ölkə üçün iqtisadi maraqlar baxımından meyarlarının müəyyən olunması lazımdır.

**Tədqiqatın əsas məzmunu müəllifin çap edilmiş aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Beynəlxalq investisiyaların mühüm nəzəri əsasları // AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2010, Buraxılış 4. - s.139-143.
2. İranda birbaşa investisiyaların cəlbinin stimullaşdırılması //AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2010, Buraxılış №3. - s. 116-122.
3. "Ərzaq təhlükəsizliyinin təmin edilməsinin sosial-iqtisadi problemləri" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları və tezisləri // AMEA İqtisadiyyat İnstitutu. – Bakı, 2011. – s.384-385.
4. İran İslam Respublikası iqtisadiyyatının inkişafında birbaşa xarici sərmayə qoyuluşlarının rolu əsasları //AMEA İqtisadiyyat İnstitutu, Elmi Əsərlər, 2011, Buraxılış №2. - s. 141-149.

5. İranda xarici investisiya qoyuluşunun effektivliyinin artırılması yolları əsasları // AMEA İqtisadiyyat İnstitutu, Xəbərləri, İqtisadiyyat seriyası, 2012, Buraxılış №3. - s.215-219.
6. Задачи привлечения иностранных инвестиций в экономику страны // Научное обозрение, 2015, № 7. - с. 274-278.

**Али Акпер Гельяни Гусейн**

## МЕСТО И РОЛЬ ИНОСТРАННЫХ ИНВЕСТИЦ В ЭКОНОМИКЕ ИРАНА

## РЕЗЮМЕ

Диссертационная работа состоит из введения, трёх глав, каждая из которых состоит из трех параграфов, заключения и списка использованной литературы.

Во введении обосновывается актуальность темы, состояние изученности проблемы, цель и задачи исследования, объект и предмет, научная новизна и практическая значимость диссертационной работы.

В I главе «Теоретическо-методологические основ инвестиционных процессов» исследованы содержание и сущность иностранных инвестиционных вложений в национальную экономику, факторы, определяющие привлечение иностранных инвестиций, международный опыт по привлечению иностранных инвестиций.

Во II главе «Анализ и оценка современного состояния иностранных инвестиций в Иране» была дана оценка современного состояния использования в Иране иностранных инвестиций сотрудничества в этой области с международными организациями, рассмотрено влияние иностранных инвестиций на динамическое развитие иранской экономики, проведен сравнительный анализ и дана оценка инвестиционной привлекательности Иранской и Азербайджанской экономики.

В III главе «Направления повышения эффективности использования иностранных инвестиций в Иране» были определены будущие приоритеты использования иностранных инвестиций в Иране, направление стимулирования иностранных инвестиционных вложений в национальную экономику и повышения эффективности их использования.

В заключении диссертационной работы обобщены результаты проведенного исследования и сформулированы конкретные выводы.

Результаты диссертационной работы, основные идеи, рекомендации и предложения опубликованы автором в шести научных трудах и материалах научно-практических конференций

**Ali Akpar Gelyani Huseynali**

## THE PLACE AND ROLE OF FOREIGN INVESTMENTS IN İRAN ECONOMY
## SUMMARY

The dissertation work consists of the introduction, 3 chapters, including 9 paragraphs, the summary and the list of the used literature.

İn the introduction the urgency of the theme, the aim, the missions, object, subject, scientific innovation, practical importance of the research and analyzes level of the problem are substantiated.

İn the first chapter of dissertation work- “The theoretical-methodical bases of investment processes” essence and substance of foreign investment, factors which to definite attraction foreign investments and etc. are investigated.

İn the second chapter-“The analyze and estimation modern condition usage foreign investments in Iran” using foreign investments in İran and modern condition of cooperation with international organizations are estimated, influence of foreign investments to development dynamic of Iran economy, comparative analyze and its estimation between Iran and Azerbaijan economy and etc. are estimated as well.

İn the third chapter-“The direction increasing of effectiveness usage foreign investment in Iran” perspective priorities using foreign investment in Iran are defined, stimulation foreign investment directions to national economy, increasing directions of effectiveness of foreign investments and etc. are shown as well.

İn the conclusion of dissertation work summarized the result of the study and formulated specific conclusions.

The results of dissertation work, the main ideas, suggestions and recommendations has published by an author in six scientific works and materials of scientific conferences .

Avtoreferat AMEA-nın kompüter mərkəzində yığılmışdır.

Ünvan: Hüseyn Cavid prospekti , 115

**НАЦИОНАЛЬНАЯ АКА, УК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТ МИКИ**

*На правах рукописи*

**АЛИ АКПЕР ГУСЕЙНАЛИ ОГЛЫ**

# МЕСТО И РОЛЬ ИНОСТРАННЫХ ИНВЕСТИЦИЙ В ЭКОНОМИКЕ ИРАНА

**Специальность : 5310.01- Мировая экономика**

**5308- Общая экономика**

**А В Т О Р Е Ф Е Р А Т**

Диссертации на соискание научной степени доктора
философии по экономике

**Б А К У - 2018**